**T.Ş.ƏSGƏROVA**
*baş müəllim*
*e-mail: tahminasgerova@gmail.com*
**:https://orcid.org/0000-0003-1864-6689**

**Bakı Slavyan Universiteti**
(Bakı şəh., S.Rüstəm küç., 33)

**10.62021/0026-0028.2025.4.255**

# QARABAĞ ƏDƏBİ MÜHİTİNDƏ QADIN SƏSİ: AŞIQ PƏRİNİN YARADICILIQ FENOMENİ

***Xülasə.*** *Məqalədə XIX əsr Azərbaycan ədəbiyyatının mühüm hadisələrindən biri olan Qarabağ ədəbi mühitində qadın sənətkarların fəaliyyəti, xüsusən də Aşıq Pərinin yaradıcılıq fenomeni araşdırılır. Aşıq Pərinin poetik irsi həm xalq şeirinin ənənələrinə söykənməsi, həm də yeni estetik dəyərlərlə zənginləşdirilməsi baxımından təhlil olunur. Onun poeziyasında qadın "mən"inin formalaşması, mənəvi müstəqillik, azad düşüncə və milli özünüdərkin poetik ifadəsi kimi məsələlər ön plana çəkilir. Tədqiqatda Aşıq Pərinin yaradıcılığı XIX əsrin ictimai-mədəni konteksti, Qarabağ ədəbi mühitinin rolu və qadın aşıq ənənəsinin formalaşması ilə əlaqələndirilərək izah olunur. Aşıq Pəri Azərbaycan poeziyasında qadın yaradıcılığının bədii-estetik başlanğıc nöqtəsi, milli poetik düşüncədə yeniləşmə mərhələsinin öncülü kimi qiymətləndirilir.*

***Açar sözlər:*** *Qarabağ ədəbi mühiti, Aşıq Pəri, qadın yaradıcılığı, XIX əsr Azərbaycan poeziyası, xalq şeiri, milli özünüdərk, lirizm, azad qadın təfəkkürü*

XIX əsr Azərbaycan ədəbiyyatı milli ədəbi fikrin inkişafında mühüm dönüş mərhələsini təşkil edir. Bu dövrdə bədii yaradıcılıq sahəsində həm forma, həm də məzmun baxımından yeniləşmə prosesi baş vermiş, xalq poeziyası ilə klassik Şərq ədəbiyyatı arasında üzvi bir sintez yaranmışdır. Ədəbi prosesdə xalq şeirinin canlı poetik dili və obrazlar sistemi yazılı poeziyanın düşüncə dərinliyi ilə vəhdət təşkil etmişdir. Nəticədə XIX əsr Azərbaycan poeziyası milli özünüdərkin, mənəvi azadlıq ideyalarının və milli oyanışın ifadəçisinə çevrilmişdir.

Bu mərhələnin mühüm cəhətlərindən biri qadın söz ustalarının ədəbi mühitdə fəal iştirakı idi. Əvvəllər əsasən kişi sənətkarların üstünlük təşkil etdiyi ədəbi məkanlarda qadın şairələrin səsi eşidilməyə başlamış, onların yaradıcılığı milli ədəbi-estetik fikrin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Qadınların ədəbiyyata gəlişi həm dövrün ictimai-mədəni dəyişikliklərinin, həm də Azərbaycan qadınının mənəvi oyanışının göstəricisi idi.

Bu baxımdan Qarabağ ədəbi mühiti, xüsusən də Şuşa şəhərindəki mədəni həyat XIX əsr Azərbaycan ədəbiyyatının seçilən hadisələrindən biridir. Şuşada poeziya və musiqi məclisləri ədəbi həyatın əsas istiqamətlərini müəyyənləşdirirdi. Bu mühit təkcə kişi sənətkarların deyil, həm də qadın yaradıcı şəxslərin fəaliyyət meydanına çevrilmişdi. Qarabağ ədəbi mühitinin nümayəndələri – Ağabəyim ağa, Gövhər ağa, Aşıq Pəri, Xurşidbanu Natəvan, Fatma xanım Kəminə, Qəmər bəyim Şeyda – XIX əsr Azərbaycan poeziyasında qadın sözünün bədii-estetik dəyərini təsdiqləmişlər.

Qarabağ ədəbi mühitində qadınların fəaliyyəti təkcə fərdi yaradıcılıq aktı deyil, həm də sosial-mədəni hadisə idi. Professor Rüstəm Kamalın qeyd etdiyi kimi, "Qadın şairlərin yaradıcılığı Mirzə Fətəlidən və Həsənbəy Zərdabidən sonra XIX əsr Azərbaycan ədəbiyyatına şöhrət gətirən ikinci böyük ədəbi mədəni hadisədir" [4, s.10].

Bu fikir XIX əsr Azərbaycan poeziyasında qadın yaradıcılığının yalnız estetik deyil, həm də ictimai-mədəni dəyər daşıdığını göstərir.

XIX əsr qadın sənətkarlar içərisində Aşıq Pəri (1810-1847) öz yaradıcılığı, müstəqil düşüncə tərzi və bədii-estetik baxışları ilə yeni bir poetik istiqamətin təməlini qoymuşdur.

Aşıq Pərinin yaradıcılığı qadın şairlər arasında milli poeziya ənənələrinin qorunması və eyni zamanda yenilənməsi baxımından mühüm mərhələ təşkil edir. Onun poeziyası təkcə qadın duyğularının poetik təcəssümü deyil, həm yeni estetik dəyərlərin təşəkkülünə xidmət etmişdir. Pərinin əsərləri göstərir ki, xalq şeirində lirizmin fəlsəfi dərinliyi və duyğu təmizliyi ilə birləşməsi milli poetik fikrin təkamülündə yeni istiqamət açmışdır. O, XIX əsr Azərbaycan poeziyasında yeni poetik düşüncənin daşıyıcısı, "klassik dilin xəlqiləşdirilməsi" prosesinin aparıcı simalarından biri kimi səciyyələndirilir.

Aşıq Pərinin həyatına dair məlumatlar əsasən folklor xarakterli qaynaqlardan, eləcə də XIX əsrin sonu – XX əsrin əvvəllərində yazılmış ədəbiyyatşünaslıq tədqiqatlarından əldə edilir. Onun kimliyi, doğulduğu yer və yaşadığı illər barədə bir sıra fərqli fikirlər mövcuddur. Bu müxtəliflik həm sənədli mənbələrin azlığı, həm də xalq yaddaşında Pəri obrazının idealizə olunması ilə bağlıdır.

Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" əsərində Aşıq Pərini "Cəbrayıl qəzasında, Dızaq mahalının Maralyan kəndində anadan olmuş, savadlı, zərif təbiətli bir qadın aşıq" kimi təqdim edir [5, s.311].

Aşığın özü də şeirlərinin birində deyir:

*Səhər-səhər doğan dan ulduzuyam,*
*Aşıqların söhbətiyəm sazıyam.*
*Adım Pəri, Hacı Sayad qızıyam,*
*Xəbər alsan, o Maralyan maralı [2, s.52].*

Pəri gənc yaşlarından təhsil almış, ərəb və fars dillərini öyrənmiş, erkən dövrlərdən bədii yaradıcılığa meyil göstərmişdir. Əri Əlipənahın vəfatından sonra o, aşıq məclislərində və poeziya yarışlarında fəal iştirak etmiş, kişi aşıqlarla deyişmələrdə qalib gəlməsi ilə tanınmışdır. Xalq arasında dolaşan rəvayətlərdə onun Cəfərqulu xan Nəva ilə deyişməsi və qalib gəlməsi, nəticədə kəndinin vergidən azad olunması xüsusi vurğulanır.

Aşıq Pəri cəsarəti ilə də ad qazanmışdır. Yaradıcılığında onun heç kəsdən çəkinməyərək düzə-düz, əyriyə-əyri deməsi diqqəti çəkir. Cəfərqulu xan Nəvanın dəvəti ilə Maralyandan Şuşaya köçmüş Pəri peşman olduğunu açıq-aydın bildirir:

*Adam bildik, biz də gəldik adına,*
*Adamlığı qanmayıbsan hələ sən [2, s.49].*

Aşıq Pəri Şuşa ədəbi mühitdə tez bir zamanda tanınmışdır. Ədəbiyyatşünas Əlabbas Müznib "*Aşıq Pəri* və müasirləri" (1928) kitabında yazır ki, Aşıq Pəri Şuşaya gələr-gəlməz Qarabağın tanınmış şairləri arasında böyük hörmətə nail olmuş, ədəbi məclislərində sayılıb seçilmişdir. O, dərin düşüncəsinə, hazırcavablığına görə müasirləri arasında izzət sahibi idi.

Əlabbas Müznib onun Qarabağ ədəbi mühitinin əsas nümayəndələri – Qasım bəy Zakir, Məhəmməd bəy Aşiq, Fərhad bəy Məlikaslanov və başqaları ilə ədəbi əlaqələrinin olduğunu da göstərir.

Firidun bəy Köçərli də Pərinin həm şeir, həm də saz sənətinə bələd olduğunu qeyd edir: "Pəri həm söz ustası, həm də sazda mahir bir ifaçı idi. Onun məclislərdə söylədiyi şeirlər xalqın dilində uzun müddət yaşamışdır" [5, s.311].

Təxminən 40–50 şeir yazdığı məlum olan Aşıq Pərinin yaradıcılığının böyük bir qismi itib-batmışdır [3, s.96].

Onun şeirləri ilk dəfə Mirzə Yusif Qarabağinin tərtib etdiyi "Məcmueyi-divani-Vaqif və müasirini-digər" (1856) toplusunda, daha sonra isə A.Berjenin hazırladığı "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" (Leypsiq, 1867) adlı nəşrdə çap olunmuşdur.

Aşıq Pərinin poeziyası əsasən şifahi ədəbiyyat ənənələri və Molla Pənah Vaqifin təsiri ilə xalq şeirinə yaxın üslubda yazmaq ənənəsi üzrə formalaşmışdı. Aşıq Pəri də məhz bu mühitin məhsulu olaraq, Vaqif realizmini və xalq lirizmini birləşdirən yeni poetik istiqamətin nümayəndəsi olmuşdur. Onun şeirlərində Vaqifin dünyəvi məhəbbət lirikasının təsiri aydın sezilir, lakin Pəri bu lirikanı qadın baxış bucağından ifadə etməklə fərqlənir.

Onun yaradıcılığının mühüm hissəsini "məclis" adlanan ədəbi mühitdə baş tutan deyişmələri təşkil etmişdir. Bu deyişmələr dinləyicilər tərəfindən qeydə alınaraq, sonradan yazılı şəkildə qorunmuşdur. Onun çox gənc yaşlarında Qarabağ mənşəli erməni Mirzəcan Mədətovla deyişməsi və bu deyişmədə qalib gəlməsi barədə rəvayətlər geniş yayılmışdır. Rəvayətlərdə bu qarşılaşma Pərinin istedad və bədii ustalığının təntənəsi kimi təqdim olunur.

Aşıq Pəri Mirzəcana müraciət edərək onu elmi, hikməti və mənəvi dərinliyi öyrənməyə çağırır. O, deyir ki, əsl şair və mərd insan dünyəvi sevgidən yox, mənəvi kamillikdən, biliyin dərin qatlarından danışmalıdır. Pəri insanı kamilliyə aparan elmi bilgilərin – yeddi mərhələnin, yeddi göyün, yeddi mənanın, yeddi mərifətin, yeddi rüknün və yeddi imanın sirrini dərk etməyə səsləyir. Yəni onun çağırışı mənəvi yüksəliş, idrak və hikmət yoluna yönəlib.

Mirzəcan isə Pərinin bu nəsihətlərinə cavabında bildirir ki, o, bu qədər elmi və mənəvi məsələlərlə deyil, sevgi ilə məşğuldur. Onun üçün bütün bu "yeddi"lər – yəni rəmzi dərinliklər – deyil, sevgilinin özüdür dəyərli. O, cənnəti, axirəti düşünmək istəmir; çünki dünyada sevdiyi insandan aldığı duyğular onun üçün kifayətdir. Aşiqin dili ilə deyir ki, mənim kamalım sevgidən gəlir, mənim üçün ən böyük həqiqət yarın özüdür.

Sonda Aşıq Pəri Mirzəcana məsləhət verir ki, artıq bu cür dünyəvi və ehtiraslı baxışdan əl çəksin, gözünü o qadından (yarından) uzaq tutsun, çünki həm rəqibdir, həm də naməhrəmdir. Onun sözləri ilə desək:"Sən mənə rəqibsən, həm də naməhrəmsən, gözlərin o zənəxdanə (yanağa) sataşmasın".

Deyişmə, tədqiqatçılar tərəfindən, qadın sənətkarın aşıq ənənəsində öz yerini təsdiqləməsi baxımından mühüm hadisə kimi dəyərləndirilir. XIX əsrin 80-ci illərində Aşıq Pərinin yaradıcılığı ilə tanış olmuş ukraynalı şərqşünas N.İ.Qulak bu deyişməyə istinad edərək yazırdı: "Biz avropalılar üçün təmiz və saf Aşıq Pəri, kobud təbiətli Mirzəcanla müqayisədə bədii və mənəvi cəhətdən daha yüksək səviyyədə dayanır. Zaqafqaziya müsəlmanları Aşıq Pəri kimi bir qadın aşıqla fəxr edə bilərlər. Aşıq Pəri Zaqafqaziyanın türk qadınları arasında yeganə istisna deyil" [7, s.70].

Bu fikir həm dövrün Avropa şərqşünas elminin Aşıq Pəri yaradıcılığına verdiyi yüksək qiyməti, həm də onun bədii və mənəvi təsir dairəsinin genişliyini göstərir. N.İ.Qulakın müşahidələri Pərinin təkcə Azərbaycan aşıq sənətində deyil, bütövlükdə Qafqazın mədəni mənzərəsində qadın sənətkar obrazının formalaşmasında oynadığı mühüm rolu da təsdiqləyir.

Pəri XIX əsr Qarabağ ədəbi mühitində fəaliyyət göstərən "Vaqif məclisi"nin üzvü olmuşdur. Adını Molla Pənah Vaqifdən alan bu məclis Azərbaycan dilində yazan şairlərin birliyini təmsil edirdi. Həmin dövrdə poeziyanın əsasən fars dilində yazıldığı nəzərə alınarsa, bu məclisin fəaliyyəti milli ədəbi kimliyin formalaşması baxımından xüsusi əhəmiyyət daşıyır. Anna Oldfield bu faktı "artmaqda olan Azərbaycan milli şüurunun göstəricisi" kimi dəyərləndirmiş, Pərini milli poeziya ənənələrini müdafiə edən sənətkarlar sırasında qeyd etmişdir [8, s. 49].

Aşıq Pəri yaradıcılığında gəraylı və qoşma kimi xalq şeir formalarından geniş istifadə etmişdir. Onun poetik irsində əsas mövzular sevgi, məhəbbət ağrısı, ictimai ədalətsizlik, həsrət və mənəvi iztirab motivləridir. Bununla yanaşı, Pərinin yaradıcılığında dərin bir şiə-müsəlman inancı da öz əksini tapır.

Aşıq Pəri şeirlərində sadə, aydın və xalq danışığına yaxın dildən istifadə etmiş, lakin bu sadəlik onun ədəbi-estetik düşüncəsinin dərinliyini azaltmamışdır. Onun poetik üslubu həm xalq yaradıcılığının obrazlılığını, həm də klassik poeziyanın intellektual dəyərlərini birləşdirir.

Aşıq Pəri "Vaqif məclisi"nin yeganə qadın üzvü olmuşdur. Onun poeziyası zarafatcıl və satirik üslubu ilə seçilir. O, deyişmələr zamanı həm öz istedadına, həm də qadın sənətkar kimi

azad iradəsinə inamını nümayiş etdirmişdir. Tədqiqatçılar Aşıq Pərini məclis üzvləri üçün "böyük bacı" obrazı ilə xarakterizə etsələr də, onun yaşca digərlərindən gənc olduğunu vurğulayırlar. Digər şairlərin ona həsr etdikləri çoxsaylı şeirlər Pərinin ədəbi mühitdə tutduğu nüfuzlu mövqeni təsdiq edir. Onun yaradıcılığı qadın sənətkarın öz sözünü ifadə etmək və poetik meydanda kişi həmkarları ilə bərabər yarışmaq imkanlarını nümayiş etdirən nümunə kimi dəyərləndirilir.

Rus şərqşünası Adolf Berje öz qeydlərində Pərinin yaradıcılığını Cənubi Qafqazdakı qadın aşıq hərəkatının başlanğıcı kimi dəyərləndirir. O, Pərinin şeirlərində "xalq ruhunun təmizliyi ilə bərabər, maarifpərvərlik meyillərinin də özünü göstərdiyini" vurğulayır.

Aşıq Pərinin yaşadığı dövr Azərbaycan xalqının milli-mədəni oyanışının başlandığı, yeni maarifçilik ideyalarının formalaşdığı bir mərhələ idi. XIX əsrin birinci yarısında baş verən ictimai dəyişikliklər, Rusiya imperiyasının Cənubi Qafqazdakı siyasəti və Şərq-Qərb qarşıdurmasının ideoloji təsiri milli düşüncədə də yeni istiqamətlər doğururdu.

Bu şəraitdə qadınların ictimai həyatda mövqeyi hələ məhdud idi. Lakin Pərinin fəaliyyəti həmin sərhədlərin aşılmasına yönəlmiş ilk bədii addımlardan biri kimi dəyərləndirilə bilər. Onun şeirlərində qadın təfəkkürünün azadlıq ehtirası, mənəvi müstəqillik və təhsilə, biliyə meyil kimi ideyalar öz əksini tapmışdır.

Aşıq Pəri XIX əsr Azərbaycan poeziyasında qadın azadlığının, mənəvi müstəqilliyin və bədii yeniliyin təcəssümü kimi çıxış edir. O, yalnız bir aşıq və ya şairə kimi deyil, həm də öz dövrünün sosial-mədəni transformasiyalarının fəal iştirakçısı kimi ədəbiyyat tarixində mühüm yer tutur.

Aşıq Pərinin yaradıcılığı XIX əsr Azərbaycan poeziyasında xalq poetik ənənələrinin yeni bir estetik mərhələyə yüksəldilməsini nümayiş etdirir. Onun şeirlərində milli poetik dilin sadəliyi və səmimiliyi, eyni zamanda bədii düşüncənin dərinliyi və fəlsəfi yönümlülüyü aydın şəkildə ifadə olunur. Pərinin yaradıcılığı tematik və ideya baxımından çoxşaxəlidir; burada məhəbbət, vəfa, qadın ləyaqəti, mənəvi azadlıq, vətənə bağlılıq və ilahi eşq motivləri xüsusi yer tutur.

F.Qasımzadə qeyd edir ki, "Aşıq Pərinin şeirlərində xalq ədəbiyyatının formaları qorunub saxlanılsa da, onların məzmunu fərdi duyğular, şəxsi mənəvi axtarışlar və qadın kimliyinin təzahürləri ilə zənginləşdirilmişdir" [6, s.104].

Pərinin poetik dünyasında "aşiq və məhbub" münasibətləri təkcə məhəbbət hissinin ifadəsi deyil, həm də mənəvi kamilliyin, daxili azadlığın simvolu kimi təqdim olunur. Bu baxımdan onun lirikasında xalq poeziyası ilə sufi-irfani təfəkkür arasında incə bir əlaqə mövcuddur.

Aşıq Pərinin şeirlərində poetik dil sadə, axıcı və xalq danışıq üslubuna yaxındır. Pərinin poetik dilində arxaik türk sözləri, təbii təkrirlər, paralellər və məcazlar sistematik şəkildə istifadə olunur. O, obrazları xalq dünyagörüşünə əsasən yaradır: "gözəllik", "dilbər", "qəlb", "yar", "dünya", "dərd", "baxt" kimi sözlər onun poeziyasında həm leksik, həm də simvolik məna daşıyır.

Onun məşhur gəraylılarından birində belə deyilir:

*Zalım Şəcər, dad əlindən,*
*Sən ha nahaq qan əylədin!*
*Zülmilə könlüm şəhrini,*
*Gör necə viran eylədin! [1, s.274].*

Bu misralardan göründüyü kimi Pəri üçün söz təkcə təsvir vasitəsi deyil, həm də duyğunun özünə çevrilmiş bir bədii dəyərdir.

Aşıq Pərinin bütün yaradıcılığı heca vəzninə əsaslanır. O, bu vəznin imkanlarından maksimum istifadə edərək müxtəlif ritmik quruluşlar yaratmışdır. Ən çox istifadə etdiyi vəznlər 11-lik və 8-lik hecalardır.

Onun şeirlərində duyğu ilə düşüncə bir-birini tamamlayır, emosional dərinliklə fəlsəfi fikrin harmoniyası yaranır. Bu xüsusiyyət onu sırf aşıq poeziyası çərçivəsindən çıxarır və yazılı ədəbiyyat səviyyəsinə yüksəldir.

Məhz bu baxımdan Pərinin lirizmi "irfani duyğu estetikası" kimi xarakterizə edilə bilər. O, məhəbbəti həm bəşəri, həm də ilahi dəyər kimi dəyərləndirir.

Aşıq Pəri Azərbaycan poeziyasında qadının öz bədii "mən"ini ifadə edən ilk səsdir. O, qadının yalnız hiss obyekti deyil, eyni zamanda düşünən, qiymətləndirən və yaradan subyekt olduğunu göstərmişdir.

Onun "Ey yar, bu könlümü aldı hicranın" misralarında qadın duyğusu passiv təslimiyyət deyil, aktiv daxili təlatümün ifadəsidir. Bu, qadın təfəkkürünün özünüdərk mərhələsinin bədii təzahürüdür.

Bu xüsusiyyətinə görə Pəri yalnız folklor mühitinin sənətkarı deyil, həm də qadın maarifçiliyinin ilkin poetik siması kimi çıxış edir. Onun şeirlərində qadının mənəvi müstəqilliyi, düşüncə azadlığı və duyğu ləyaqəti ideyaları XIX əsr Azərbaycan cəmiyyətində yeni bir estetik və ideoloji mərhələnin başlanğıcını qoymuşdur.

***Nəticə.*** Aşıq Pərinin yaradıcılığı xalq şeirinin bədii formalarını qoruyaraq, yeni estetik və mənəvi dəyərlərlə zənginləşdirmişdir. O, poeziyada qadın sözünü, qadın düşüncəsini və mənəvi azadlıq ideyasını fəal şəkildə ifadə etmiş, aşıq ənənəsində qadın sənətkarın bədii səsini təsdiqləmişdir. Aşıq Pərinin poetik irsi milli poeziya tarixinin öyrənilməsində mühüm elmi və estetik əhəmiyyətə malikdir.

***Məqalənin elmi yeniliyi.*** Məqalədə Aşıq Pərinin yaradıcılığı Qarabağ ədəbi mühitinin kontekstində sistemli şəkildə təhlil olunur, onun qadın aşıq ənənəsinin formalaşmasında oynadığı rol yeni elmi aspektdə işıqlandırılır. Aşıq Pərinin poeziyası yalnız folklor hadisəsi kimi deyil, milli özünüdərkin, qadın təfəkkürünün və maarifçi ideyaların bədii ifadəsi kimi təqdim edilir.

***Məqalənin tətbiqi əhəmiyyəti.*** Araşdırmadan Azərbaycan ədəbiyyatı tarixi, qadın yaradıcılığı və aşıq poeziyası üzrə aparılan elmi tədqiqatlarda, həmçinin universitetlərdə "Azərbaycan ədəbiyyatının tarixi", "Aşıq yaradıcılığı" mövzularının tədrisində istifadə oluna bilər. Materiallar ədəbiyyat dərslərinin məzmununun zənginləşdirilməsi üçün də metodik dəyərə malikdir.

## Ədəbiyyat


1. Azərbaycan aşıq şeirindən seçmələr / – Bakı: Şərq-Qərb, –c.1. – 2005, – 376 s.
2. Azərbaycan qadın şairləri antologiyası / Bakı: Avrasiya Press, – 2005, – 256 s.
3. Bayraktarlar, T. Peri. Türk Edebiyatı İsimler Sözlüğü / T.Bayraktarlar, – Ahmet Yesevi University. – 2014.
4. Kamal, R. XIX əsr Azərbaycan ədəbiyyatında qadın ruhu // Ədəbiyyat. –2019. 20 aprel.
5. Köçərli, F. Azərbaycan ədəbiyyatı: [2 cilddə] / F.Köçərli, – Bakı: Avrasiya Press, –c.1. – 2005, – 283 s.
6. Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı / F.Qasımzadə, – Bakı: Elm və təhsil, – 2017, – 280 s.
7. Quliyev, V. Qarabağın üç şaireyi-möhtərəməsi / V.Quliyev, – Bakı: Azərbaycan Dövlət tərcümə mərkəzi, – 2022, – 103 s.
8. Oldfield, A. "Don't Get in my Face Like Ashiq Peri" // Jussawalla, Feroza; Omran, Doaa (redaktorlar ). Memory, Voice, and Identity: Muslim Women's Writing from across the Middle East. New York: Routledge. – 2021.


**T.S.Askerova**

**A Woman's Voice in the Karabakh Literary Environment: Ashug Pari's Creative Phenomenon**

***Summary***

The article examines the activities of female artists in the Karabakh literary environment, one of the important events in 19th-century Azerbaijani literature, and in particular the creative phenomenon

of Ashug Pari. Ashug Pari's poetic heritage is analyzed in terms of both its foundation in the traditions of folk poetry and its enrichment with new aesthetic values. Issues such as the formation of the female “I”, spiritual independence, free thought and poetic expression of national self-awareness are brought to the fore in her poetry. The study explains Pari's creativity in connection with the socio-cultural context of the 19th century, the role of the Karabakh literary environment and the formation of the female ashug tradition. Ashug Pari is evaluated as the artistic and aesthetic starting point of women's creativity in Azerbaijani poetry, the pioneer of the stage of renewal in national poetic thought.

***Keywords:*** *Karabakh literary environment, Ashug Pari, women's creativity, 19th century Azerbaijani poetry, folk poetry, national self-awareness, lyricism, free women's thinking*

**Т.Ш.Аскерова**

**Женский голос в карабахской литературной среде: творческий феномен Ашуг Пери**

***Резюме***

В статье исследуется деятельность женщин-деятелей в Карабахской литературной среде XIX века – одном из важнейших явлений азербайджанской литературы данного периода, в особенности творческий феномен Ашуг Пери. Поэтическое наследие Ашуг Пери рассматривается с точки зрения опоры на традиции народной поэзии и обогащения их новыми эстетическими ценностями. Особое внимание уделяется формированию женского “я” в её поэзии, выражению духовной независимости, свободомыслия и национального самосознания. Творчество Пери анализируется в связи с общественно-культурным контекстом XIX века, ролью Карабахской литературной среды и становлением женской ашыгской традиции. Ашуг Пери оценивается как художественно-эстетическая отправная точка женского творчества в азербайджанской поэзии и как предвестница этапа обновления национального поэтического мышления.

***Ключевые слова:*** *Карабахская литературная среда, Ашуг Пери, женское творчество, азербайджанская поэзия XIX века, народная поэзия, национальное самосознание, лиризм, свободное женское мышление*

*Rəyçi: dos. F.Məmmədov*

*Redaksiyaya daxil olub: 07.11.2025*